30 yanvar—Gömrük işçilərinin peşə bayramıdır

# Gömrük sistemi ölkəmizin tərəqqisində mühüm rol oynayır

Azərbaycanda gömrük sisteminin təşkili tarixi çox qədimdir. Tarix boyu mövcud olmuş bütün Azərbaycan dövlətlərində gömrük xidməti ilə məşğul olan xüsusi təsisatlar fəaliyyət göstərmişlər. Lakin gömrük sisteminin elmi-hüquqi əsaslarla təşkili ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olmuşdur. Azərbaycan ərazisini qeyri-qanuni ticarətdən və qaçaqmalçılıqdan qorumaq məqsədilə hökumətin 1918-ci il 12 iyul tarixli qərarı ilə Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, Poylu dəmir yolu stansiyasında ilk gömrük postları yaradılmışdı. Azərbaycan hökuməti gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən sənədi 1918-ci il avqustun 10-da qəbul etmişdi.

Azərbaycan parlamentinin 1918-ci il 18 avqust tarixli qanununa əsasən qaçaqmalçılıqla mübarizə, ölkənin ərazisini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə Azərbaycanın sərhədlərində 99 gömrük postu yaradılmışdı və burada 992 gömrük işçisi keşik çəkirdi.

Aprel işğalı digər sahələrdə olduğu kimi, gömrük sistemində də işlərin başa çatdırılmasına imkan vermədi. SSRİ dövründə Azərbaycanda gömrük sistemi mövcud olmamışdır. Bu iş yalnız ittifaq orqanları tərəfindən həyata keçirilirdi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra 1992-ci il yanvarın 30-da müstəqil gömrük sisteminin əsası qoyuldu. Amma o zaman ölkədə mürəkkəb ictimai-siyasi vəziyyət mövcud olduğundan gömrük orqanlarının formalaşmasına imkan verilməmişdir. Yalnız ulu öndər Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda uğurlu gömrük sisteminin möhkəm təməli qoyuldu. Yanvarın 30-da dövlət gömrük işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi də məhz ulu öndərin adı ilə bağlıdır.

Azərbaycan Gömrük Xidməti ölkənin quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa qarşı uğurla mübarizə aparır.

Azərbaycan gömrüyünün inkişaf dinamikası son 12 ildə uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda yaşanan iqtisadi inkişaf prosesləri gömrük xidmətinin də həyatından yan keçmədi, ölkəmizin ümumi tərəqqisində aparıcı qüvvəyə çevrilən gömrük orqanlarının fəaliyyəti günün tələbləri səviyyəsində quruldu. Bu sahədə həyata keçirilən islahatlar gömrük qanunvericiliyinin təkmilləşdirməsi prosesinə davamlı töhvə verdi. Beynəlxalq aləmə inteqrasiya nəticəsində Azərbaycan gömrüyü daha müasir və dünya standartlarına uyğun yeni mərhələyə qədəm qoydu. Bu proses dövlət başçısının 1 fevral 2007-ci ildə imzaladığı «Azərbaycan Respublikası gömrük sisteminin 2007—2011-ci illərdə inkişafına dair Dövlət Proqramı haqqında» Sərəncamının uğurlu icrası ilə daha da sürətləndi. Proqrama əsasən 5 il ərzində gömrük sərhədində mal dövriyyəsinin sürətləndirilməsi və sahibkarlıq subyektlərinə əlverişli şəraitin yaradılması təmin edildi, gömrük nəzarəti metodları beynəlxalq standartlara uyğunlaşdırıldı və gömrük prosedurları avtomatlaşdırıldı, qaçaqmalçılığa və gömrük işi sahəsində digər hüquqpozmalara qarşı mübarizə gücləndirildi, gömrük infrastrukturu inkişaf etdirildi, kadr hazırlığı və beynəlxalq əməkdaşlıq genişləndirildi. 2012-ci il yanvarın 1-dən qüvvəyə minən yeni Gömrük Məcəlləsi, elə həmin il Dövlət Gömrük Komitəsi Akademiyasının təsis edilməsi və Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq olunması bu prosesə öz töhfəsini verdi.

**«Qəbələ».**

# Öncə xalqın maraq və mənafeyidir

Dünyanı lərzəyə salan qlobal böhranın yaratdığı maliyyə və iqtisadi problemlər davam etməkdədir. Bu problemlərin həllini hələ proqnozlaşdırmaq da çətin olaraq qalır. Bu cür vəziyyət ölkəmizdən də yan keçə bilməzdi. Ötən ilin sonlarında bu problem qabarıq şəkildə özünü göstərdi. Manatın məzənnəsi birdən-birə 50 faizdən çox aşağı düşdü. Doğrudur, bu vaxta qədər cənab Prezident ölkəni baş verməkdə olan böhrandan yayındırmaq məqsədi ilə müəyyən qabaqlayıcı tədbirlər görür, islahatlar keçirirdi. Son vaxtlar olduqca çətin vəziyyət ölkəmizdə də özünü biruzə verdi. Ölkə rəhbərliyi vəziyyətin qarşısını almaq üçün təcili tədbirlər görməyə başladı. İlk öncə xalqın maraq və mənafeyi önə çıxarıldı. «Əsil siyasət konkret real iş görməkdən ibarətdir»--devizinə sadiq qalan cənab Prezident manatın devalvasiyası ilə əlaqədar yanvar ayının 16-da əmək və sosial pensiyalarının artırılması barədə sərəncamlar imzaladı. Fevral ayının 1-dən qüvvəyə minən sərəncamlar əsasında əmək və sosial pensiyaların baza hissəsinin 10 faiz artırılması nəzərdə tutulur. Bəzi kateqoriyalardan olan pensiyaların isə artımı daha yüksək olacaqdır. Təkcə əmək pensiyaları alanların sayı 1 milyon 296 min nəfərdir. Əmək pensiyalarının baza hissəsinmin 10 faiz artırılması 1 milyon 223 nəfərə şamil edilir. Qalan 73 min nəfərin, yəni dövlət qulluqçuları, hərbi qulluqçular və digər bu kataqoriyaya aid olan pensiyaçıların pensiyası qanunauyğun olaraq fərqli qaydada hesablanacaqdır.

Ölkə başçısı yanvar ayının 18-də isə təhsil müəssisələrində, Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövləq qulluqçusu olmayan mülki işçilərin dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi tədqiqat müəssisələri, idarə və təşkilatlarda, səhiyyə, mədəniyyət, gənclər və idman, sosial təminat müəssisələrində çalışan işçilərin əməkhaqqılarının artırılması barədə sərəncamlar imzalamışdır.

Yanvar ayının 18-də baş verməkdə olan proseslər zəminində daha bir mühüm tədbir Azərbaycan Prezidenti İlham Əliyevin yanında-iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirə keçirilmişdir. Ölkə başçısı müşavirədə mövcud vəziyyətlə bağlı geniş nitq söyləmiş və problemlərin aradan qaldırılması üçün təkliflərini vermişdir. İlham Əliyev demişdir: «Bu il biz struktur islahatları aparmalıyıq. Buna ehtiyac var. Ümumiyyətlə, daha da çevik, operativ idarəetmə mexanizmi işlənməlidir».

Hakimiyyəti yalnız vətəndaşlara xidmət vasitəsi kimi dəyərləndirən Prezident həmçinin dövlət qurumları üzərində ictimai nəzarətin möhkəmləndirilməsinin vacibliyini də qeyd etmişdir. Xalqa xidməti əsas tələb, əsas prinsip, kimi qarşıya qoyan ölkə başçısı demişdir: «Xalq prezidenti seçir, prezident də xalqın qarşısında cavab verməlidir. Əgər xalq onun fəaliyyətini dəstəkləyirsə, ona inanırsa, bu ən böyük mükafatdır». Bu prinsip bilavasitə onu göstərir ki, cənab Prezident ölkə başçısı seçilərkən verdiyi vədlərə bir daha sadiqdir və sona qədər də sadiq qalacaqdır. Xalqla hakimiyyət orqanının vəhdəti, birliyi varsa, o dövlət sarsılmazdır. Məhz ölkəmizdəki uğurların mənbəyi də bundadır.

Cənab Prezident müşavirədəki çıxışının sonunda da qarşıda duran bütün sosial və iqtisadi vəzifələrin icrasına əminliyini bildirmişdir. Son günlərdə həqiqətən də yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq istiqamətində mühüm tədbirlər görülməkdə davam edir.

**Nadir ATAKİŞİYEV.**

2 fevral—Gənclər Günüdür

# Gənclər gələcəyimiz və qürur mənbəyimizdir

Hər zaman aparıcı sosial-demoqrafik qrup kimi dəyərləndirilən gənclik cəmiyyətin inkişafında daim hərəkətverici qüvvə sayılır. Bunu şərtləndirən əsas səbəblərdən biri gənclərin cəmiyyətin ən dinamik təbəqəsi olmaqla ictimai-siyasi, sosial iqtisadi sahələri əhatə edən hadisələrin mərkəzində yer almalarıdır. Tarixi təcrübə də aydın göstərir ki, gənc nəsillə bağlı dəqiq və dərin düşünülmüş siyasət olmadan dünyada heç bir dövlət inkişafında böyük uğurla müşayiət olunan nəticə əldə edə bilməz. Fərəhli haldır ki, ölkəmizdə həmişə diqqət və qayğı göstərilən gənc nəsil hazırda Azərbaycanın ictimai-siyasi, sosial-iqisadi həyatının bütün sahələrində müsbət fəaliyyəti ilə seçilir. Gənclər iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində öz sözünü deyir.

Xatırlatmaq yerinə düşərdi ki, ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə gənc nəslə böyük qayğı ilə yanaşaraq bu təbəqənin təmsilçilərinin dövrun tələblərinə cavab verən formada inkişafın əməli tədbirlərlə stimullaşdırdı. Bunun konkret təzahürü kimi gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafına diqqətin artırılması, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlərin görülməsi, bir sıra dövlət proqramlarının hazırlanmasını qeyd etmək olar. Ulu, öndərin uzaqgörən siyasəti və təşkilatçılığı ilə 1994—2003-cü illərdə gənclər siyasətinin hüquqi bazası yaradılmış, bu sahədə əsas vəzifələr və istiqamətlər muəyyənləşdirilmişdir. 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası Gənclərinin birinci forumu keçirilmişdir. Gənclərin həyatında çox önəmli və yaddaqalan bir hadisəyə çevrilən forumdan sonra ölkədə gənclərə yeni münasibət açıq-aydın hiss olundu.

Hər il fevral ayının 2-nin Azərbaycanda Gənclər Günü kimi qeyd olunması barədə sərəncam imzalayan ulu öndər bəyan etmişdir ki, «biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik».

**(Ardı 4-cü səhifədə).**